# Su Təsərrüfatı və Kanalizasiya İnvestisiya Proqramı üzrə birinci tranş layihəsi üçün kredit sazişi imzalanmışdır

***Dekabrın 17-də Azərbaycan hökuməti və Asiya İnkişaf Bankı (AİB) arasında Su Təsərrüfatı və Kanalizasiya İnvestisiya Proqramı çərçivəsində 75 milyon ABŞ dolları məbləğində birinci tranş üçün kredit sazisi imzalanmışdır.***

Ümumi məbləği 600 milyon ABŞ dolları olan bu layihə investisiya qoyuluşuna daha çox ehtiyac duyulan regional səhələri əhatə edəcəkdir. Saziş 8 il müddətinə imzalanmışdır və çoxtranşlı maliyyə mexanizmi vasitəsi ilə həyata keçiriləcəkdir. AİB tərəfdən ayrılmış vəsait güzəşt müddəti 4 il olmaqla 24 illiyə verilmişdir və faiz dərəcəsi LİBOR borcvermə mexanizminə uyğun olaraq təyin edilir. Azərbaycan hökuməti isə ümumi vəsaitin 25 milyon ABŞ dollarını təmin edəcəkdir. Naxçıvan Muxtar Respublikası (MR) istisna olmaqla layihənin əhatə edəcəyi ərazilərdə icraçı təşkilat “Azərsu”, Naxçıvan MR-də isə Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi olacaqdır.

Sənədi Azərbaycan hökuməti tərəfindən maliyyə naziri Samir Şərifov, “Azərsu” ASC-nin prezidenti Nizaməddin Rzayev, Naxçıvan MR Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin baş direktoru Əsgər Əsgərov, AİB tərəfdən isə qurumun şəhər təsərrüfatı departamentinin direktoru Mətyu Vestfol imzalamışlar.

Şəbəkə infrastrukturunun təkmilləşdirilməsi, Göyçay və Naxçıvan şəhərlərində yeni yaradılmış su cəmiyyətlərinin imkanlarının gücləndirilməsi işlərinə əlavə olaraq, birinci tranş çərçivəsində nasos stansiyalarının bərpa edilməsi, boru-səbəkə sisteminin gücləndirilməsi, təchizat zonalarının tətbiq edilməsi və sayğacların quraşdırılması üçün vəsait təqdim ediləcəkdir. Bunun nəticəsində yeni yaradılmış su cəmiyyətlərinin iqtisadi dayanıqlığının təmin edilməsi üçün tələb olunan ilk tədbirlər - suyun keyfiyyətinin yaxşılaşdırılması, xidmətlərin davamlılığının artması, suyun təzyiqinin yüksəldilməsi və sayğacların quraşdırılması həyata keçiriləcəkdir.

İnvestisiya proqramı vasitəsilə paytaxtdan kənar şəhərlərdə və Bakının ətraf qəsəbələrində təqribən 500 min nəfər üçün su təchizatı və kanalizasiya xidmətlərinin keyfiyyəti, əhatə dairəsi və davamlılığı gücləndiriləcəkdir. Bununla yanaşı, planlaşdırma, idarəetmə və istismar xidmətləri ilə məşğul olan təşkilatların bacarıqları da təkmilləşdiriləcəkdir.

Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov imzalanma mərasimində iştirak etmişdir.

***AzərTAc***

Azərbaycan .- 2009.- 18 dekabr.- S. 3.